

# Saz-söz bayramı

**Ulu və müqəddəs ozan sənətinin görkəmli nümayəndələrindən biri Aşıq Avdının kamil bir sənətkar kimi yetişməsində Türk dünyasının azman aşığı Dərəçiçəkli Sadıq Sultanovun böyük xidmətləri olmuşdur.**

Aşıq Avdı Avdıyev 60 il aşıqlıq etmiş, aşıq sənətini sevdirməkdə və yaşatmaqda misilsiz xidmətlər göstərmişdir. O, neçə-neçə aşığın ustadı olmuş, onlara sənətin sirlərini öyrətmiş, çoxlu şəyirdlər yetişdirmişdir.

Aşıq Avdı Avdıyev yaradıcı aşıq olmuşdur. O "Avdı və Mehriban" məhəbbət dastanını, çoxlu sayda qoşma, gəraylı, təcnis, müxəmməs, divani yaratmış, klassik aşıq havasına daha bir hava- "İncəgülü" havasını bəxş etmişdir.

Sazlı-sözlü ozanımız, ustad aşığımız Avdı baba 1988-ci ildə 80 yaşında Qaymaqlı kəndində əbədiyyətə qovuşmuşdur.

Bu yaxınlarda Aşıq Avdı Qaymaqlının doğma kəndində (Avdı ocağında) ustad sənətkarın anadan olmasının 100 illik yubileyinə həsr olunmuş yaddaqalan bayram tədbiri keçirildi. Bu bir növ sazın- sözün bayramı, Aşıq Avdının "İncəgülü" dünyasının bayramı idi. Həmin gün eyni zamanda ustad aşığın 100 illik yubileyinə həsr olunmuş "İncəgülü" kitabının təqdimat mərasimi keçirildi. Kitabda aşığın yaradıcılığından nümunələr, "Avdı və Mehriban" dastanı, ona ithaf olunmuş şeirlər və xatirələr toplanmışdır. Kitaba Azərbaycan Aşıqlar Birliyinin sədri Xalq şairi Zəlimxan Yaqub, filologiya elmləri namizədi, ədəbiyyatşünas alim Rüstəm Kamal ön söz yazmışlar.

Aşıq Avdının 100 illik yubiley tədbirini Qazax Rayon İcra Hakimiyyəti başçısının müavini F.Nağıyev giriş sözü ilə açaraq avdısevərləri yubiley münasibətilə təbrik etdi.

Azərbaycan Yazıçılar Birliyinin Qazax zonası üzrə sədri, şair Barat Vüsal, "İncə" Nəşrlər evinin direktoru Cümşüd İsgəndər, yubileyə hazırlıq qrupunun rəhbəri Rəfael İncəyurd, ədəbiyyatşünas Rüstəm Kamal, folklorşünas- tədqiqatçı Şöhrət Cəlal Ozan-Aşıq məktəbinin görkəmli nümayəndəsi ustad Avdı haqqında öz ürək sözlərini, xatirələrini söylədilər.

Şairlərdən Ələddin İncəli, Çiçək Məmmədova, Kazım Kazımlı, Yunis Qaraoğlu Aşıq Avdıya həsr etdikləri şeirlərini oxudular.

Daha sonra söz saza, aşıq musiqisinə verildi. Aşıqlardan Səadət Gülməmmədov, Yaqub Şıxlı, Camay Qurbanov, Yaşar Gülümcanov, Hüsən Dərgahquliyev, Qərib İncəli, Vəli Avdıyev və başqaları ustad sənətkarın şərəfinə çalıb oxudular, yubiley tədbirini daha da mənalı etdilər. Tədbirdə eyni zamanda Aşıq Avdının xatirəsinin əbədiləşdirilməsi təklifi irəli sürüldü. İldə bir dəfə ustad aşığın şərəfinə saz və söz bayramı keçirilməsi qərara alındı.

Aşıq Avdının 100 illik yubiley tədbiri göstərdi ki, İncə dərəsində, Qaymaqlı kəndində saz yaşayır, söz nəfəs alır. Bu bayram sənətə, sənətkara böyük xalq ehtiramının, məhəbbətinin ifadəsidir.

Yubiley tədbirinin sonunda Avdı ocağının ağsaqqalı, ustad aşıq Sadıq Avdıyev Bakıdan gələn qonaqlara, tədbir iştirakçılarına öz minnətdarlığını bildirdi, atasının 100 illik yubileyinə həsr olunmuş "İncəgülü" kitabını nəşrə hazırlayan, ərsəyə gətirən bütün insanlara təşəkkür etdi.

Qaymaqlı kəndindən sonra Aşıq Avdının 100 illik yubileyi Bakıda- Azərbaycan Dövlət Musiqili Komediya Teatrında da yüksək səviyyədə keçirildi.

● **Kazım ABDULLAOĞLU**